# Milli irsə ehtiramla

## 23 nömrəli məktəbin şagirdləri Natəvana həsr olunan kompozisiya hazırlayıblar









Prezident İlham Əliyevin "Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında" Sərəncamına uyğun olaraq tədbirlər davam etdirilir. Belə tədbirlərdən biri də Bakı şəhəri Nəsimi rayonu Tahir Həsənov adına 23 nömrəli məktəbdə baş tutub.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin üzvləri Arzu Əsəd, Elşad Barat, Əsəd Cahangir, məktəbin müəllimləri, valideynlər və şagirdlər iştirak ediblər.

Məktəbin Azərbaycan dili və ədəbiyyət müəllimi Bikə Nəcəfovanın rəhbərliyi ilə 7A sinif şagirdlərinin hazırladıqları və Natəvana həsr olunan "Sevgi və ehtiramla yad edirik" adlı kompozisiya kiçik səhnələr şəklində nümayiş etdirilib.

Tədbirdə çıxış edən məktəbin direktoru Nigar Hənifəyeva qonaqları salamladıqdan sonra Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin ədəbiyyatımıza göstərdiyi diqqət və qayğıdan söz açaraq, dövlət başçısının bu tarixi sərəncamını əlamətdar hadisə kimi dəyərləndirib.

Daha sonra məktəbin Azərbaycan dili və ədəbiyyət müəllimi Bikə Nəcəfova çıxış edərək XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, ictimai xadim Xurşidbanu Natəvanın zəngin bədii yaradıcılığından bəhs edib. O qeyd edib ki, Xurşidbanu Natəvan Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin izlər qoyub. Onun şeirləri hələ sağlığında dildən-dilə düşüb, əlyazma şəklində yayılıb. Xurşidbanu Natəvan parlaq istedada və qabaqcıl ideallara malik olan şəxsiyyət olub. Onun Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin izlər qoymasının bir neçə səbəbi var. Bunlardan biri şairənin soykökündür, yəni Natəvanda iki böyük nəslin - Cavanşirlərin və Ziyadoğlu-Qacarların qanı var. Bu iki böyük və şərəfli nəslin nümayəndələri arasından istedadlı şairlər çıxıb.

Bikə Nəcəfova vurğulayıb ki, Natəvanın ölümü təkcə Azərbaycanın yox, bütün Qafqazın qabaqcıl, maarifpərvər adamlarını kədərləndirib: "Bu münasibətlə "Qafqaz", "Tərcüman" və başqa qəzetlərdə nekroloqlar, Natəvanın həyat və fəaliyyəti haqqında yazılar dərc edilib. XX əsrin ilk yarısında Xurşidbanunun şeirlər məcmuəsi bir neçə dəfə çapdan çıxıb. Dahi Azərbaycan şairinin misilsiz xidmətləri xalqımız, dövlətimiz tərəfindən hər zaman layiqincə qiymətləndirilərək onun adı küçə, klub, kitabxana, məktəbə verilib. Xan qızının əlyazmaları, şəxsi geyim və əşyaları nadir eksponat kimi arxiv və muzeylərimizdə saxlanılır. Bakıda heykəli, Şuşada büstü, Ağdamda qəbirüstü abidəsi qoyulub".

Müəllim Xurşidbanunun ilk yaradıcılığından da danışıb. Onun sözlərinə görə, Natəvan yaradıcılığa 1850-ci illərin əvvəllərində başlayıb, ilk şeirlərini təxəllüssüz, öz adı ilə yazıb. Bu əsərlər günümüzə qədər gəlib çıxmayıb. Onun şeirləri məzmun cəhətdən aşiqanə olub, təbiət gözəlliklərinə həsr edilib, müasirlərinə yazdığı mənzumələr hüznlü şeirlərə bölünüb. Onun yaradıcılığı şeirlə məhdudlaşmayıb. O, rəssamlıqla da məşğul olub, həmçinin nəfis əl işləri, tikmələri ilə də tanınıb. Bir sıra vilayət və şəhərlərə səyahətə çıxması Natəvanın təfəkkür dairəsinin genişlənməsinə, dünyagörüşünün artmasına təkan verib.

Tədbirin sonunda qonaqlar çıxış edərək şagirdlərin kompozisiyası haqqında dəyərli fikirlərini bölüşüblər və çıxışları yüksək qiymətləndiriblər.

Çıxış edənlər məktəb şagirdlərinin Xurşidbanu Natəvanın həyat və yaradıcılığına həsr edilmiş ədəbi-bədii kompozisiyasının görkəmli teatrlarımızın səhnəsinə layiq olduğunu deyiblər. Bildirilib ki, məktəblilərin gözəl ifası, tamaşanın hazırlanmasına sərf edilən gərgin zəhmət, məktəb direktorunun, müəllimlərin, valideynlərin ədəbiyyatımızın, tariximizin təbliğində, uşaqlarımıza sevdirilməsində göstərdikləri səy, qayğı və əmək təqdirəlayiqdir. Vurğulanıb ki, dünyanın, beynəlxalq siyasətin bu ağır və mürəkkəb dövründə milli ədəbiyyatımızı, tariximizi zehnlərinə, qəlblərinə, iliklərinə hopduran bu uşaqların nümunəsində müstəqil dövlətçiliyimizin gələcəyini görmək son dərəcə qürurverici hissdir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan***

Azərbaycan.- 2022.- 29 dekabr.- S.16.